**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR CƏMİYYƏTDƏ GƏNCLƏRİN SEÇİM BACARIQLARININ SOSİOLOJİ PROBLEMLƏRİ

| | |
|---|---|
| İxtisas: | 6312.01 "Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi" |
| Elm sahəsi: | Sosiologiya |
| İddiaçı: | **Zahid Hacıalı oğlu Əliyev** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun Sosiologiya şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru
**Rəfiqə Cəlil qızı Əzimova**

Rəsmi opponentlər: fəlsəfə elmləri doktoru, professor
**Sakit Yəhya oğlu Hüseynov**

sosiologiya üzrə fəlsəfə doktoru, dosent
**Cavid Məhərrəm oğlu Məniyev**

sosiologiya üzrə fəlsəfə doktoru
**Südabə Sörab qızı Haşımova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 3.09 – Birdəfəlik Dissertasiya şurası.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 3.09 – Birdəfəlik Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ sosiologiya elmləri doktoru, professor
**Hüseyn Tapdıq oğlu Qaraşov**

Dissertasiya şurasının elmi katibi: ____________ fəlsəfə üzrə fəlsəfə doktoru
**İlham Əbülfət oğlu Abbasov**

Elmi seminarın sədri: ____________ sosiologiya elmləri doktoru, dosent
**Səadət Davud qızı Məmmədova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Sürətlə dəyişən, inkişaf edən dünyada öz potensialına uyğun doğru seçim etmək, müasir qloballaşma, *sosial-iqtisadi,* mədəni *və texnoloji* dəyişikliklər *və* inkişaflar şəraitində gənclərin *düzgün qərar verməsi* xüsusi aktuallıq kəsb edir. Müasir dövrdə informasiya çoxluğu, informasiya axınının diferensiasiyası və inteqrasiyası şəraitində gənclərin üzərinə böyük vəzifələr düşür. Bu gün 16-35 yaş arası gənclərin zövqündə həyat, yaşam, insanlar və ailə münasibətləri ilə bağlı elə fərqli və düşündürücü dəyərlər formalaşmışdır ki, sosiologiya elmi onları öyrənmədən, araşdırmadan digər elmlər bu mühüm problem barədə hansısa bir dəqiq elmi mülahizə irəli sürə bilməz. Sürətlə dəyişən "gənc nəsil" fenomenini dərk etməyin ən aktual aspektlərindən biri gənclərin seçim bacarıqlarının sosioloji problemlərinin öyrənilməsi və onların istiqamətlərinin aydınlaşdırılmasıdır. Nəzərə almaq lazımdır ki, bu gün sosiologiyanın aktual problemləri sırasında etnopsixoloji, dini-ideoloji, iqtisadi amillər mühüm rol oynayır və hər bir mərhələdə alınan elmi nəticələr, əslində, bir çox amillərin təsirinin nəticəsidir.

Mövzunun aktuallığının digər tərəfi isə ümumilikdə seçim probleminin mənşəyini və genezisini öyrənməklə müəyyən tarixi dövrlərdə bu sahədə yaranmış suallara cavab tapmaq, o cümlədən insanların mənşəyi ilə bilavasitə bağlı olan ayrı-ayrı elmi istiqamətlərin qarşılıqlı əlaqəsi əsasında yeni elmi nəticələrin əldə olunmasının təmin edilməsi, öyrənilməsi və tətbiqidir. Bununla bərabər qeyd etmək lazımdır ki, günümüzdə gənclərin seçim problemi həllini gözləyən məsələlərdən biri olaraq qalmaqdadır. Lakin sürətlə dəyişən dünyada "məna kəşflər"i gecikir, analogiyalar bəzən işləmir.

Gənclərin müasir dünyada seçim bacarığının sosioloji problemləri mövzusunun aktuallığı xüsusilə son dövrdə dünyanın yaşadığı pandemiya və sonrakı postpandemiya dövründə xeyli aktuallaşmışdır. Belə ki, epidemiyanın "qurbanları", əsasən, yaşlı nəsil olduğundan dünyanın gələcək taleyi gənclərin "ümidinə" qalır. Bu "ümid" nə dərəcədə özünü doğruldacaq, insanlığı xilas edəcək,

cəmiyyətləri hansı yollarla yenidən inkişafa aparacaq sualları bəşəriyyəti bu gün ciddi düşündürən, narahat edən məsələlərdən biridir. Hələ kifayət qədər həyat təcrübəsi olmayan gənclərin belə bir ümumbəşəri problem yaşamaları, sözsüz ki, onları da bir çox suallar qarşısında aciz qoymuşdur.

Mövzunun aktuallığının daha mühüm bir tərəfi isə bəşəriyyətdə xalqların və dövlətlərin idarə edilməsi ilə bağlı bir cox mühüm problemlərin həllində əsas təkanverici qüvvə olan gənclərin seçimi ilə əlaqədar olan hərəkət və ideyalardır. Müasir dünyanın daim dəyişən mənzərəsini izlədikdə insanların məskunlaşdığı yerlərdə cərəyan edən təlatümlər fonunda əziyyət çəkən insanların ən çox gənclər olduğunu mass-mediadan: KİV-dən, internet səhifələrindən, sosial şəbəkələrdən görürük. Bu məlumatların onlayn monitorinqi və təhlili nəticəsində belə qənaətə gəlirik ki, bəşər tarixində dəfələrlə baş vermiş bu cür güclü dəyişikliklər fonunda gənclər artıq şüuraltı bilik, yaddaş və bacarıqlarını bərpa edərək, öz həyat yollarını davam etdirirlər. Bu cür subyektiv nəticə kütləvi miqrasiyaya məruz qalmaq məcburiyyətində olan gənclərə xüsusilə aid edilə bilər. Statistik analizə görə, əsasən, Asiya qitəsindən Avropaya, Amerikanın şimalına miqrasiya edən insanların əksəriyyəti gənclərdir. Bu kütləvi hərəkatlar daxilində gənclər daha mobildirlər. Bu da bir mühüm seçim bacarığı nümunəsidir.

Azərbaycanda gənclər siyasəti gənclərin ictimai-siyasi münasibətlər sistemində rasional təmsilçiliyini təmin edən fundamental mexanizmdir. Bu gün Gənclər siyasəti bütün ölkə gəncliyini əhatə edir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclər Fondunun yaradılması, gənclərin və gənclər təşkilatlarının bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması və onların hökumət tərəfindən dəstəklənməsi, gənclər üçün Prezident Mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi Azərbaycanda gənclərə dövlət qayğısının bariz nümunəsidir. Gənc nəslə qoyulan investisiya dövlətin gələcək inkişafının təminatıdır. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Dövlət Gənclər siyasəti Azərbaycan dövlətinin gənclik kapitalına xüsusi yanaşmasının təzahürüdür. Gənc vətəndaşlara

dövlət qayğısı, onların problemlərinin həllinə dəstək müstəqil Azərbaycan dövlətinin daxili siyasətinin ən mühüm vəzifələrindən biridir. Azərbaycan dövlətinin uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradır. Bu tərəqqinin geniş vüsət almasında gənclərin rolu böyükdür.

Ölkəmizdə gənclərin seçim bacarığının apogeyi – kulminasiya həddi yaşadığımız II Qarabağ müharibəsində göstərdikləri misilsiz qəhrəmanlıqlar oldu. 2020-ci il sentyabrın 27-də başlayıb 44 gün davam edən Vətən müharibəsindən Azərbaycan gəncləri tarixin və tərəqqipərvər bəşəriyyətin şahidliyi ilə Zəfərlə çıxdılar. Prezident İlham Əliyevin 30 ildən artıq əsarət altında olan Azərbaycan torpaqlarının işğaldan azad edilməsini hədəfləyən uğurlu siyasi manevrlərində gənclərimizin qəhrəmanlıqlarının şahidi olduq. Azərbaycan gənclərinə göstərilən inam və etibar öz əzəməti ilə diqqət çəkdi.

Bu gün Azərbaycan gəncləri vətənin suverenliyi və ərazi bütövlüyünün keşiyində ayıq-sayıq dayanır, peşəkar kadr olmaq məqsədilə müxtəlif biliklərə yiyələnir, dövlət idarəçiliyi sistemində aktiv şəkildə təmsil olunurlar, Azərbaycan Respublikasının bayrağını yüksəkliklərə qaldıraraq dünya səviyyəli idman yarışlarında fərqlənirlər.

Azərbaycan Rerspublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gənc nəslin hərtərəfli inkişafı məqsədilə onların elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətlərin stimullaşdırılmasını, eyni zamanda səmərəli məşğulluğunun təmin edilməsi, gənclərin potensialından dövlətimizin rifahı naminə istifadə olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev Xankəndidə Azərbaycan bayrağını ucaldan zaman Azərbaycan gənclərinə olan inam və etibarını ifadə edərək demişdir: "Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq."

Müasir dövrün reallıqları üzərində gənclər və onların problemlərinin həlli bir çox elm sahələrində, o cümlədən sosiologiyada aparılan tədqiqatlar nəticəsində həyata keçirilməkdədir,

gənclərin müstəqil seçim bacarıqlarının hansı yollarla yaranması, formalaşması birbaşa sosiologiyanın vəzifələrinə daxildir.

Beləliklə, dissertasiya işinin mövzusu aktualdır, sosiologiya elminin problemlərindən birinə həsr olunmuş və ciddi araşdırmalar aparılmaqla müəyyən elmi nəticələr əldə edilmişdir.

Azərbaycanda araşdırdığımız gənclərin seçim bacarıqlarının sosioloji problemləri mövzusu xüsusi olaraq işlənməmişdir. Bununla belə, elmi ədəbiyyatda və publisistikanın bəzi sahələrində mövzu ilə bağlı müxtəlif dövrlərdə müəyyən tədqiqatlar aparılmışdır.

İctimai həyatda gənclərin rolu, onlarda özünütərbiyə məsələləri, ümumiyyətlə, sosioloji problemlər, onun mahiyyətinə əsaslanan tədqiqatlar mövcuddur. Bu mövzu A.M. Cəfərov və E.B. İmaməliyevin "Azərbaycanın ictimai həyatında gənclərin rolu"[1], Ə.S. Bayramovun "Gənclik və özünütərbiyə haqqında söhbət"[2], "Sosial psixologiyanın aktual məsələləri"[3], Ş.T. Bünyadovanın "Münasibətlər müstəvisi"[4], R.İ. Əliyevin "Tərbiyə psixologiyası"[5], M.Ə. Həmzəyevin "Pedaqoji psixologiya"[6], M.C. Məhərrəmovun "Psixologiya oçerkləri"[7] və digər Azərbaycan alimlərinin əsərlərində araşdırılmışdır.

Bununla belə, gənclərin həyatının müəyyən keçid dövründə şüur və davranışının psixoloji tələbatında yaşla əlaqədar olaraq baş verən psixofizioloji dəyişikliklər, eləcə də ayrı-ayrı qoruyucu psixoloji mexanizmlərlə əlaqəli problemlər sovetlər dövründə və hazırkı Rusiyada bir çox tədqiqatçılar tərəfindən araşdırılmışdır.

V.A. Bodrovun "Psixologiya və etibarlılıq: texnoloji idarəetmə

---

1 Azərbaycanın ictimai həyatında gənclərin rolu / Red. A.M.Cəfərov, E.B.İmaməliyev; Bakı: MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi, 2012.

2 Bayramov, Ə.S. Gənclik və özünütərbiyə haqqında söhbət. Bakı: Gənclik, 1969.

3 Bayramov, Ə.S. Sosial psixologiyanın aktual məsələləri. Ali məktəblər üçün dərslik, Bakı: Qapp-Poliqraf Korporasiyası, 2003.

4 Bünyadova, Ş.T. Münasibətlər müstəvisi, Bakı: Mütərcim, 2018.

5 Əliyev, R.İ. Tərbiyə psixologiyası, Bakı: Nurlan, 2006.

6 Həmzəyev, M.Ə. Pedaqoji psixologiya. Bakı: ADPU-nun mətbəəsi, 1991.

7 Məhərrəmov, M.C. Psixologiya oçerkləri: [2 hissə], I hissə, Bakı: Azərb. Un-ti, 1960.

sistemlərində insan”[8], “Peşəkar uyğunluq psixologiyası”[9], İ.S. Konun “Gündəlik həyat və əxlaq”[10] kimi tədqiqat əsərlərində mövzu ilə bağlı problemlər tədqiq edilmişdir.

Keçən əsrin 70-ci illərindən başlayaraq gənclərlə ətrafdakı reallıq arasındakı münasibətlərdəki ziddiyyətləri araşdıran tədqiqatların müəllifləri arasında bir qrup rus-sovet alimini və onların əsərlərini qeyd etmək olar. S.P. Beznosovun “Peşəkar şəxsiyyətin deformasiyası”[11], L. Xellin “Şəxsiyyət nəzəriyyələri”[12], V.A. Çetvernin “Demokratik konstitusion dövlət: nəzəriyyəyə giriş”[13], İ.V. Şapovalenkonun “Yaş psixologiyası (inkişaf və yaş psixologiyası)”[14], A. Şveytzerin “Mədəniyyət və etika”[15] əsərlərini göstərmək olar.

Xüsusilə yeniyetməlik dövründə gənclərin psixoloji vəziyyətini subyektiv reallıqlarda – ideyaları, maraqları, hərəkətlərinin əsas motivləri ilə bağlı tədqiq edərək kulturoloji maarifçilik baxımından araşdırmalar aparmış S.Qriqoryev, S.İ.Konnikova, V.Lisovski kimi tanınmış sosioloq, kulturoloqların adlarını çəkmək olar. Q.M. Andreyevanın “Qruplarda şəxsiyyətlərarası qavrayış”[16], T.E.Konnikovanın “Məktəbdə şagird kollektivinin təşkili”[17], V.T.

---

[8] Бодров, В.А. Психология и надежность: человек в системах управления техникой, Москва: Изд-во Институт психологии РАН, 1998.

[9] Бодров, В.А. Психология профессионально пригодности. Учебное пособие для вузов, Москва: ПЕР СЭ, 2001.

[10] Кон, И.С. Повседневность и нравственность. Знание – сила, 1987, №6, с.52-56.

[11] Безносов, С.П. Профессиональная деформация личности, СПб.: Речь, 2004.

[12] Хьелл, Л. Теории личности, Санкт-Петербург: Питер, 1997.

[13]Четвернин, В.А. Демократическое конституционное государство: введение в теорию, Моска: Изд-во ИГиП РАН, 1993.

[14] Шаповаленко, И.В. Возрастная психология (Психология развития и возрастная психология), Москва: Гардарики, 2005.

[15] Швейцер, А. Культура и этика, Москва: Прогресс, 1973.

[16] Андреева, Г.М. Межличностное восприятие в группе, Москва: Изд-во МГУ, 1981.

[17] Конникова, Т.Е. Организация коллектива учащихся в школе. Обобщение опыта работы школы № 210 Ленинграда, Москва: Изд-во Акад. пед. наук РСФСР, 1957.

Lisovskinin "Tələbə şəxsiyyəti"[18] adlı tədqiqat əsərlərində seçim probleminin sosioloji məsələlərini təhlil etmişlər.

Günümüzdə gənclərin ictimai seçimi probleminə həsr olunmuş ayrıca dərslik, dərs vəsaiti, yaxud da xüsusi elmi ədəbiyyat məlum deyildir. Ümumilikdə ədəbiyyatla tanışlıq zamanı ictimai seçim problemi üzrə nəzəriyyəyə həsr olunmuş ayrıca monoqrafiyaya belə, təəssüf ki, rast gəlinməmişdir.

Bununla belə, dünyada bəzi ölkələrdə bu prosesi izləmək, analiz etmək üçün bəzi elmi məqalələr çap olunmaqla yanaşı, ictimai seçim nəzəriyyəsinin öyrənilməsi üçün xüsusi elmi mərkəzlər fəaliyyət göstərməkdədir.

Problem üzrə uzun illər ciddi fəaliyyət göstərən elmi mərkəzlərdən dünyada daha çox tanınan və analizləri qəbul edilən "Center for study of Public Choice", "European Public Choice Society", "James M. Buchanan Center for Political Economy at George Mason University", "Japan Public Choice Society", "Public Choice Society" adlı xüsusi təşkilatları göstərmək olar.

Seçimlə bağlı tipoloji seçim, seçim tipləri problemi xüsusi elmi istiqamət kimi ilk dəfə C.Fon Neyman və O.Morgenşteynin əsərlərində öyrənilmişdir. Bu əsərlərdə nəzəri elmi mülahizələr analitiklər qarşısında praktiki araşdırmadan sonra elmi məqalələrdə öz əksini tapmışdır.[19]

O.Morgenşteyn tərəfindən yaradılan elmi mülahizələrə görə, seçimin lazımlılıq nəzəriyyəsi məhz rasional seçimi nəzərdə tutur. 1940-cı ildə işlənmiş bu nəzəriyyədə ilk dəfə sosiologiya elmində insanın üstünlük verdiyi seçimlərin rasionallığının əsası, risklərin mövcudluğu zəminində optimal strategiyanın seçilməsi dayanırdı. Amerikalı filosof K.fon Çernyak tərəfindən irəli sürülən başqa bir "minimal rasionallıq" nəzəriyyəsinə görə, bütün alternativ variantlar deyil, minimal seçimlərdən ən çox uyğun olanı seçmək məqsədəuyğun olur.[20] Başqa bir alternativ nəzəriyyə

---

[18] Лисовский, В.Т. Личность студента. Ленинград: Изд-во Ленингр. ун-та, 1974.

[19] Моргенштейн, О., Нейман, Дж. Фон. Теория игр и экономическое поведение. Москва: RUGRAM, 2013., s.530-620.

[20] Моргенштейн, О., Нейман, Дж. Фон. Теория игр и экономическое поведение. Москва: RUGRAM, 2013., s.242-267.

Q.Saymon[21] adlı alimə aiddir. Onun fikrinə görə, “məhdud rasionnalıq nəzəriyyəsi”, ümumiyyətlə, dünyanın modelini sadələşdirə bilər, yəni insan öz tələbatını qismən öz seçimlərinə uyğun, cəmiyyətə ziyan vurmadan ödəyə bilərsə, daha böyük seçimlərə, deməli, bəşəriyyətdə problemlərə ehtiyac qalmaz.

Ancaq həm xarici, xüsusilə də postsovet sosioloji ədəbiyyatlarında, həm də Azərbaycan sosioloji ədəbiyyatlarında gənclərin seçim bacarıqlarının sosioloji problemləri dərindən və hərtərəfli tədqiq edilməmişdir. Ona görə də gənclərin seçim bacarıqlarının sosioloji problemlərinin və onların həlli yollarının sosioloji baxımdan araşdırılmasını qarşımıza məqsəd kimi qoymuşuq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini – gənclər və onların seçim bacarıqlarının öyrənilməsi, predmetini isə karyera, ailə və təhsil alan gənclərin seçim bacarıqlarının sosioloji təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir dövrdə Azərbaycanda gənclərin seçim qabiliyyətləri və bacarıqları ilə bağlı mühüm sosioloji problemlərin müəyyənləşdirilməsidir.

Göstərilən məqsədə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

-yalnız sosiologiya elmi üzrə deyil, həmçinin psixologiya, fəlsəfə və insan həyatı, fiziologiyası ilə məşğul olan digər elm sahələri üzrə müvafiq ədəbiyyatın təhlilə cəlb edilməsi;

-problemin bütün mövcud forması və strukturu üzrə sosial sorğu, kütləvi informasiya məlumatlarının toplanması və təhlili, həmçinin sosial şəbəkələrdə araşdırdığımız mövzuya gənclərin münasibətlərinin öyrənilməsi;

-seçim anlayışına fərdlərin özünün münasibətini öyrənməklə problemin yaranma səbəblərinin və həlli yollarının fərqli aspektlərdən tədqiq edilməsi;

-seçim anlayışının fərdi və ictimai cəhətlərinin, onun sosial

[21] Сафин, В.Ф. Психология самоопределения: учебное пособие. Свердловск: Изд-во Свердловского гос-го ун-та, 1986. s.16-38

sahəsi və istiqamətlərinin, elmdə mövcud olan nəzəriyyələrdə seçim mərhələləri və tipoloji səviyyəsinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

- yaşadıqları məkandan, zaman və digər amillərdən asılı olaraq müəyyən yaşlarda fərdin şəxsiyyətə çevrilməsini, başqa sözlə, şəxsiyyətin formalaşması və inkişafını, şəxsiyyətin formalaşmasının özünəməxsus psixoloji və ictimai səviyyəsini, yeniyetməlikdən gəncliyə keçid zamanı gənclərin psixoloji vəziyyətində baş verən bəzi dəyişiklikləri nəzərə almaqla seçim prinsiplərinin tədqiq edilməsi;

-gənclərin seçim probleminin səbəblərini və həlli yollarını müxtəlif aspektdən araşdıraraq, mümkün həll yollarının elmi baxımdan əsaslandırılması;

-gənclərin seçim məsələsinin həllində ictimaiyyət tərəfindən təqdim edilən tənzimləmə yollarının araşdırılması; obyektiv və subyektiv səbəblərdən bəzi gənclərdə "tənhalıq" sindromunun baş verməsi və onun qarşısının alınmasında sosial inteqrasiyanın mühüm amil olduğunu sübut etmək və cəmiyyətdə şəxsiyyət probleminin həllinin mövcud olmasını əsas tendensiyalara istinad etməklə problemin həllinin nəzəri cəhətdən əsaslandırılması;

-yetkin şəxsiyyət kimi formalaşan gənclərin mürəkkəb ictimai mühitlə qarşılıqlı əlaqələrinin öyrənilməsi;

-gənclərin məqsədə çatması üçün sosiologiya elminin bəzi metodlarının tətbiq edilməsi qaydalarına dair təkliflər verilməsi. Bu metodların bilavasitə tətbiqi nəticəsində əldə edilən faktiki məlumatlar əsasında gənclərin seçim bacarıqlarında ümumi dünyagörüşü və müxtəlif səviyyəli amillərin rolunun müəyyən edilməsinin səmərəli nəticəsinin nümunələrlə göstərilməsi;

-gənclərin seçim probleminin həllində ictimai rəyin əhəmiyyətini müəyyən etməklə düzgün seçim probleminin həllinə müasir yanaşmanın xüsusiyyətlərinin araşdırılması.

**Tədqiqat metodları** qarşıya qoyulmuş vəzifələrin həlli və tədqiqat predmetinin spesifikası ilə müəyyən edilmişdir. Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədqiqatın mövzusu ilə bağlı proqram xarakterli çıxışları, ölkə başçısının müvafiq fərman və sərəncamları

tədqiqatın nəzəri əsasını müəyyən etməyə mühüm təsir etmişdir. Tədqiqat işində əsasən sistemli baxış, müqayisəli analiz, məntiqi təhlil, statistika, riyazi üsul və sosioloji sorğu metodlarından istifadə edilmişdir.

Problemlə bilavasitə əlaqəli olan nəzəri və empirik biliklərin ümumiləşdirilmiş məcmusundan istifadə edilmişdir. Metodoloji əsas kimi göstərilən yanaşmalardan əlavə, müasir dövrdə geniş vüsət almış KİV-in İnternet üzərindən nümayiş etdirdiyi məlumatlardan; daha çox gənclər tərəfindən istifadə olunan sosial şəbəkə növlərinin məlumatlarının təhlillərindən nəticə çıxarılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işinin müddəaları aşağıda öz əksini tapmışdır:

-Sosiologiyada seçim problemi insanların həyatının bütün sahələrinə aid edilən vacib bir prosesdir. Müasir gənclərin seçim bacarığının və imkanlarının hərtərəfli öyrənilməsində müəyyən metod və metodolji bazanın xüsusiyyətlərini araşdırmaq mühüm məsələdir. Müasir qloballaşma, *sosial-iqtisadi,* mədəni *və texnoloji* dəyişikliklər *və* inkişaflar şəraitində gənclərin *düzgün qərar verməsi* onların prioritetlərinin dəqiqliyini ehtiva edir. Daimi dəyişikliklər və qeyri-müəyyənliklər şəraitində, mütərəqqi sosial-mədəni transformasiyaların səmərəli idarəolunması üçün düzgün seçim bacarığı mühüm əhəmiyyət kəsb edir.

-Müasir dünyada gənclərin seçim anlayışına fərqli yanaşmanın əsas istiqamətlərinin tədqiqi müasir cəmiyyətimizdə aktual məsələlərdən biri olaraq qalmaqdadır. Qloballaşan *dünyada,* təbii ki, genişlənən *seçim* imkanlarından *gənclər* daha çox bəhrələnə bilirlər. Seçim, ümumiyyətlə, bir çox tədqiqatlarda müxtəlif alternativ variantların müqayisəsi nəticəsində subyektin, yəni gənclərin qərarı kimi qəbul edilir. Daha dəqiq desək, sosiologiya elmində seçim insanın öz mahiyyətinin seçimi, həyatının inkişafı və mənası kimi mümkün məsələləri əhatə edir.

-Seçim gənclərin fizioloji quruluşu və şəxsi həyat tarixçəsi ilə əlaqədar olaraq, onun gələcək həyatına birbaşa təsir göstərən mühüm prosesdir. Gənclərin seçim etdikləri əsas sahələr və onların mürəkkəbliyi arasında əsas hədəfin təyin edilməsi onlara fəaliyyətlərini inkişaf etdirməyə kömək edir. Düzgün seçimlə gənc

insan öz daxili qabiliyyətinə uyğun əməkdaşlıq yolunu tapa bilir, cəmiyyət üçün faydalı fərdə çevrilə bilir.

- Müəyyən bir yaş həddinə çatdıqda gənclərin seçim problemi onların məşğuliyyət məsələsinin həllində yaranmağa başlayır. Yaş həddindən asılı olaraq, gənclərin seçim bacarığının, şəxsiyyət problemlərinin sosioloji tədqiqatının nəticələri göstərir ki, seçim problemi qlobal miqyas ölçüsündə fiziologiyadan, həm də patoloji olaraq cinslərdən asılıdır. Qeyri-kafi sosial adaptasiya insanların erkən yaşlarından özünə inamının formalaşma prosesinə mane törədir;

-Müasir dünyanın gənclərində psixoloji amillərin seçim məsələsində yer və rolunun müəyyənləşdirilməsi əvvəlki dövrlərdən fərqli olaraq, hazırda daha önəmli əhəmiyyət kəsb edir. Seçim məsələsində psixoloji və sosioloji faktorlar bir-birilə vəhdətlik təşkil edir və bu istiqamətlərdə müəyyən konkret vəzifələrin həllini nəzərə almaq tələb olunur. Gənclər məlum sosial-psixoloji keyfiyyətlərdən dolayı həyat ideallarının dəyişməsi çətinlik törətmirsə, öz güc və qabiliyyətlərinin tətbiq sahəsini sürətlə genişləndirirlər.

-Yaşadığımız müstəqillik dövründə gənclər siyasəti sahəsində əldə edilmiş uğurlar gələcəyə hesablanmış siyasətin nəticəsidir. Son 30 ildə demokratik islahatlar prosesində gənclərə göstərilən diqqət və dəstək müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan biridir. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Bu gün əminliklə deyə bilərik ki, dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə inam hissi artmışdır və yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə sahib gənclər formalaşır;

-Gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Gənclik hər bir *dövlətin gələcəyi* üçün əsas rol oynayan ən mühüm faktorlardan biridir. Müasir dövrdə Azərbaycan gəncləri ictimai həyatın bütün sahələrində fəal fəaliyyəti ilə fərqlənir, siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində önəmli rol oynayırlar.

**Tədqiqatın elmi yeniliyi** əsas etibarilə, tədqiqat predmeti olaraq seçilmiş mövzu, tədqiqatın məqsədi ilə bağlıdır. Dissertasiya işinin elmi yeniliyi aşağıdakı müddəalarla təsdiqlənir:

-müasir Azərbaycan cəmiyyətində gənclərin seçim bacarıqlarının sosioloji problemləri ilk dəfə araşdırmaya cəlb edilmişdir;

-müasir qloballaşma və informasiya dünyasında gənclər arasında geniş yayılan tənhalıq kompleksinin təsnifatları və seçim məsələlərinə qarşı mümkün mənfi təsirin aradan qaldırılmasının ictimai münasibətlər müstəvisindən birbaşa asılılığı göstərilmişdir;

-Azərbaycan Respublikasının sosial mühitində müasir dünyada bir çox problemlərin həllində gənclərin ümumi dünyagörüşünün, tərbiyə sisteminin, davranış qaydalarının vaxtında və düzgün tətbiqi, xüsusilə ictimai rəyin əhəmiyyəti məsələsi dəqiqləşdirilmişdir;

-gənclərin sosiallaşmasının seçim bacarıqlarına olan "insan kapitalının" təsiri və rolu sosioloji araşdırmalarla həyata keçirilmişdir;

-sosial şəbəkələrin gənclərin seçiminə olan təsiri ilk dəfə araşdırılmışdır;

-ictimai şüurun xüsusiyyətlərinin cəmiyyətə təsirinin müəyyən edilməsində gənclərin rolu tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin **nəzəri əhəmiyyəti** tədqiq olunan problemə yeni elmi yanaşma ilə müəyyən edilir. Dissertasiya işi sosiologiya üzrə yazılan dərslik və dərs vəsaitlərinin, tədris proqramlarının, həmçinin gənclərlə iş üzrə layihələrin hazırlanması zamanı araşdırılan mövzu ilə bağlı nəzəri biliklər qismində müəyyən əhəmiyyətə malikdir. Tədqiqatın nəzəri müddəalarından müasir cəmiyyətdə gənclərin seçim bacarıqlarının inkişaf problemləri ilə bağlı gələcək elmi araşdırmalarda istifadə edilə bilər. Tədqiqat nəticəsində əldə edilən müddəalardan gənclərin seçim bacarıqlarının sosioloji problemlərinin tədqiq olunmasında, psixoloji amillərin seçim məsələsində rolunun müəyyənləşdirilməsində faydalanmaq mümkündür.

Dissertasiya işinin **praktik əhəmiyyəti** tədqiqatın nəticələrinin və təklif ounan praktik tövsiyələrin dövlət orqanlarının gənclər siyasətinə yönələn fəaliyyət istiqamətlərinin dəqiqləşdirilməsi, eləcə də tədris müəssisələrində istifadə

edilməsinin mümkünlüyü ilə əlaqədardır. Dissertasiyanın illüstrativ materiallar bölməsində göstərilən qaydada gənclər arasında aparılan sorğular qərarların qəbul edilməsi və icrası zamanı da geniş anlamda istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas məzmunu, müddəaları və nəticələri nüfuzlu beynəlxalq və respublika səviyyəli elmi jurnallarda və toplularda dərc olunmuş məqalələrdə, beynəlxalq və respublika miqyaslı elmi konfranslarda edilmiş məruzə və çıxışlarda öz əksini tapmışdır. Tədqiqatın əsas müddəaları iddiaçının çap olunmuş elmi məqalələrində öz əksini tapmışdır. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun Sosiologiya şöbəsinin iclasında keçirilmiş ilkin müzakirədə aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat**. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla tədqiqatın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən ( 1986 işarə), 3 fəsildən (I fəsil 9588 işarə; II fəsil – 8841 işarə; III fəsil- 8591 işarə; 7 paraqrafdan, nəticədən (2560 işarə), ədəbiyyat siyahısından (5821 işarə) və illüstrativ materiallardan, o cümlədən cədvəllərdən (2760 işarə) ibarətdir. Dissertasiya işinin ümumi həcmi 40754 işarəni əhatə edir, ədəbiyyat siyahısı və illüstarsiyalar istisna olmaqla 31708 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanin "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi öyrənilmiş, tədqiqatın obyekt və predmeti müəyyənləşdirilmiş, həmçinin tədqiqat işinin məqsəd və vəzifələri dəqiqləşdirilmiş, elmi yeniliyi konkter olaraq göstərilmiş, nəzəri metodologiyası və metodikası, elmi–nəzəri və praktik əhəmiyyəti öz əksini tapmışdır.

Dissertasiyanın birinci fəsli **"Gənclərin seçim problemlərinin mahiyyəti, xüsusiyyətləri və ictimai**

**funksiyaları"** adlanır. Bu fəsil iki paraqrafı əhatə edir. Birinci paraqraf **"Tədqiq olunan problemin nəzəri-metodoloji əsasları"** adlanır. Tədqiqatın göstərilən paraqrafında ümumi olaraq qeyd olunur ki, sosiologiya elmində XIX əsrin ortalarından sosioloji realizm və sosioloji nominalizm metodoloji prinsip kimi paradiqmalar üstünlük təşkil edir.

XX əsrin ortalarından başlayaraq cəmiyyətdə baş verən köklü dəyişikliklər sosiologiyanın nəzəri axtarışlarında konstruktivizm metodologiyasında öz əksini tapmışdır. Müasir sosiologiyada aktual metodoloji prinsip kimi sosioloji konstruktivizm metodologiyası nəzəri istiqamət olaraq üstünlük təşkil edir. Əgər sosioloji nominalizm metodologiyasında elmin əsas predmeti insan, fərd, şəxsiyyət, fərdiyyət sosial assosiasiyalardırsa, sosial mühitdə insan davranışları və onun əsasında duran səbəblər nəzəri-metodoloji istiqamət kimi sosial konstruktivizm metodologiyasının predmetini təşkil edir.

Sosioloji konstruktivizmin metodoloji bazası müasir istiqamət kimi özündə bir sıra anlayışları və nəzəriyyələri əks etdirir. Onların içərisində seçim anlayışı və seçim nəzəriyyəsi yeni elmi nəzəriyyə olaraq son 20-30 ildə müstəqil bir nəzəriyyəyə çevrilmişdir. Seçim nəzəriyyəsi ilə bağlı hazırki vaxtda müəyyən qədər tədqiqat əsərləri yazılmışdır. Bu elmi araşdırmalarda seçimin metodoloji prinsipləri öz əksini tapmışdır.

Konkret olaraq, araşdırdığımız mövzunun metodoloji bazası və metodları, əsasən M.Veber, A.Turen, D.Mid və başqalarının problemə yanaşma kəsişməsində aparılmışdır. Bu yanaşmanın yaradıcıları və davamçılarının fikirlərinə görə, bütün sosioloji araşdırmaların kökündə sosiologiyanın əsas analiz mənbəyi olan insan fenomeni dayanır. Daha konkret olaraq, gənclərin seçim potensialı onların şüurlu davranışı ictimai şüur və ictimai reallıq çərçivəsində mühüm ölçmə meyarı kimi reallaşdırılmaqdadır.[22]

---

[22] Бергер, П. Социальное конструирование реальности. Трактат по социологии знания, Москва: Медиум, - 1995. s.124-128; Теплов, Б.М. Способность и одаренность. Проблемы индивидуальных различий, Москва: Изд. Академии наук РСФСР, 1961, s.401-409.

Seçimin fərdi və ictimai cəhətlərinin xüsusiyyətlərinin aydınlaşdırılmasında gənclərin cəmiyyətlərin inkişafı, sosial-iqtisadi şəraitə görə ixtisas məsələlərinin həlli önəmli yer tutur. Müasir dövrdə seçim azadlığının həm fərdi, həm də ictimai mahiyyəti demək olar ki, tamam dəyişmişdir. Belə ki, bəzi dövlətlərarası sərhədlərin açıq olması, ictimai istehsalın sürətli inkişafı və sosiumun – insanların mobillik dərəcəsinin sürəti fərdi seçimin ixtisaslara görə miqyasını xeyli genişləndirib.

Günümüzdə dünyada həyatın axarı, sosial dəyişikliklərin görünməmiş sürətlə baş verməsi bəşəriyyəti, o cümlədən hər zaman cəmiyyətin əsas təkanverici qüvvəsi olan gəncləri demək olar ki, təcili seçim qarşısında qoyur.

Bildirilir ki, gənclərin seçim problemi və xüsusilə də sosiologiyada seçim problemi insanların həyatının bütün sahələrinə aid edilən vacib bir prosesdir. Gənclər seçim əsasında hər zaman və hər yerdə cəmiyyətin sosial strukturunun zəruri tərkib hissəsi olaraq, əsas aparıcı qüvvəllərdən birinə çevrilmişdir.

Birinci fəsilin birinci paraqrafında belə bir nəticəyə gəlinir ki, seçim gənclərin fizioloji quruluşu və şəxsi həyat tarixçəsi ilə əlaqədar olaraq, onların intellekt inkişafına uyğun proses olaraq, insanın bütün gələcək həyatına birbaşa təsir göstərən mühüm sosioloji prosesdir.

Tədqiqat işinin birinci fəslinin birinci paraqrafında bəzi nəzəriyyələri araşdıraraq, belə bir ümumiləşdirməyə gəlmək olar ki, seçim şəxsiyyətin sağlam düşüncəsinin tərkib elementidir. Hər bir gənc həyatının ayrı-ayrı zamanlarında seçim vəziyyətinə gəldikdə, əsasən, şəxsi təhlükəsizliyi və gələcək inkişafı arasınıda qalır. Bu zaman hər iki vəziyyətlə əlaqədar seçim düzgün ola bilər. Şəxsi təhlükəsizliyini əsas kimi seçərək, tələbatının bir qismini yerinə yetirə bilməyəcəyini ağılla dərk edən şəxs öz məqsədlərinə çatmaq üçün daha uzun, daha əziyyətli yolu seçə bilir, yaxud əvvəlcə öz şəxsi inkişafını tez həyata keçirməyə üstünlük verərək, həyatını müəyyən təhlükələrə ata bilir. Hər iki halda "tələsik" verilən qərar insanı çox tez sıradan çıxara bilər, yəni gənc həyatının problemlərinin həlli yolunu seçərkən bir növ öz eqosunun qurbanı olaraq, tezliklə həm bu tərzdə, həm də təhlükəsizlik məsələsini həll

edə bilmədən cəmiyyətdə öz yerini tutmaya bilər.

Birinci fəslin ikinci paraqrafı **“Gənclərin seçim bacarıqları ilə bağlı anlayışlar bazası və onların tipoloji səciyyəsi”** başlığı altında işlənmişdir. Bu paraqrafda bildirilir ki, müasir dünyada gənclərin ayrıca bir sosial qrup kimi formalaşması onların cəmiyyətdə mövcud olan digər insan qrupları ilə olan aktiv münasibətlərindən, həmçinin innovasiyalar, məlumatların ötürülmə kommunikasiyası və çatdırılma növləri kimi ictimai funksiyaların dərk edilməsi zamanı müstəqilləşdikləri zaman baş verir. Bu gənc qrupun əsas sosial-demoqrafik xüsusiyyətlərindən biri kimi onların fəaliyyət sahələri nəzərə alınaraq, onların arasında yaş qrupları ayırd edilir.

Bu və ya digər aspektlərdən yanaşdıqda, sosioloji baxımdan seçimin sosial istiqamətlərinin öyrənilməsində əməyin funksiyalarının mahiyyətinin araşdırılması başlıca yerlərdən birini tutur. Həmçinin sosiologiyanın bir qrup tədqiqatçıları seçimin sosial problemində statistika metodlarından bəhrələnməni təklif edirlər.

İnsanların – sosiumun, fərdlərin seçim probleminin həllində əsas tələblərdən biri azad olma, müstəqil hərəkət etmə, asılı olmama kimi meyarlar ilk yerlərdən birini tutur. Bu azadlığın erkən forması ailədən, valideynlərdən kənarda, onlardan maddi və mənəvi asılılıq olmadan, ayrı bir həyat qurmaqdan başlayaraq davam edir. Burada düzgün seçim etmək ən məsuliyyətli bir məqamdır. Bu paraqrafda qeyd olunur ki, gənclərin seçim bacarıqları həyata keçirilməsi nəzərdə tutulan işlərə yaradıcı yanaşmadan, konkretliyi, dəqiqliyi qəbul etmək və təhlil etmək bacarığından birbaşa asılıdır. Seçimin tipoloji səciyyəsi isə onun mahiyyətinə və ümumi xüsusiyyətlərinə əsaslanaraq qərar qəbul etməyi nəzərdə tutur.

Dissertasiyanın ikinci fəsli **“Şəxsiyyət fenomeni, onun təkamül yolu və cəmiyyətdəki rolu”** adlanır və o, iki paraqrafdan ibarətdir. Fəslin birinci paraqfı **“Gənclərdə keçid dövrünün ruhi-psixoloji təlatümü və yetkin şəxsiyyətin seçim potensialı”** adlanır. Gənclərlə əlaqəli olan sosioloji problemlər sırasında aktuallıq kəsb edən mürəkkəb bir sahə, onlarda keçid dövrünün psixoloji təlatümünün yaranmasının səbəb və nəticələri, bununla əlaqəli ictimai tənzimlənmə proseslərinin araşdırılmasıdır. Belə ki,

bir çox sosial elmlər kimi, sosiologiyada da, gənclərin göstərilən problemlərinin universal xüsusiyyətləri, onların fərdi və kollektiv funksiyasının, inkişafının mövcudluğu zamanı bir çox proseslər, o cümlədən psixoloji qarışıqlıqlar baş verir. Bu zaman elm sahələrinin, o cümlədən sosiologiyanın cəmiyyətdə baş verən hadisələrin məhz ictimaiyyət və ictimai münasibətlər kontekstindən yoluna qoyulması üçün, müəyyən yollar tapılması demək olar ki, elmlərin aktual problemlərindən birinə çevrilmişdi. Bu yönümdə, keçən yüzillikdə gənclərin göstərilən problemlərinin araşdırılması ayrı-ayrı elmi məktəblərin nümayəndələrinin fikirlərində öz əksini tapmışdı. Bu elmi məktəblərin tanınmış nümayəndələri (psixoanalitik məktəb – Z. Freyd, K. Yunq, K. Erikson; struktur – funksional məktəb – E. Dyürkheym, R. Merton; kulturoloji məktəb – P. Buger, T. Hekman) gənclərin keçid dövründəki ruhi-psixoloji təlatümlərinin əsas səbəblərini yaşla bağlı olan psixi parametrlərlə, ətraf mühitin qarşılıqlı əlaqəsi ilə, insanların yaratdıqları mədəniyyətin təsiri ilə əlaqələndirirlər.

İkinci fəslin birinci paraqrafında bildirilir ki, gənclərdə keçid dövrü hər kəsdə özünəməxsus psixoloji təlatümlərdən keçsə də, ictimai tənzimləmə prosesi ilə müəyyən nailiyyətlər əldə edilə bilər. Bu nailiyyətlərin əsas potensialı ailə, təhsil və ictimai münasibətlərdən keçir. Bununla belə, hər zaman, hər yerdə istisnalar olur. Ona görə də, ümumi qaydalar və onların dəqiq tətbiqi mümkün deyil.

İkinci fəslin **“Tənhalıq kompleksi və ictimai tənzimlənmə proseslərinə elmi yanaşma”** adlanan ikinci paraqrafında “tənhalıq” anlayışının elmi izahı verilərək, qeyd olunur ki, ümumilikdə tənhalıq kompleksi haqqında olan elmi mülahizələr sübut edir ki, tənhalığa ayrı bir psixoloji fenomen kimi yanaşan bir qrup araşdırmaçı – prosesi insanların qərəzləri və düşünülmüş şəkildə özlərini cəmiyyətdən təcrid etmə forması kimi izah edirlər. Tənhalığın subyekti və obyekti insanın özüdür və bu seçimi insanın özü həyata keçirir. Tənhalıq hissiyatı həm də gənclərə aid olan, çox mürəkkəb psixoloji məzmuna malik bir insan xüsusiyyətidir. Tənhalıq kompleksini aradan qaldırmaq üçün mübarizə birbaşa onun “simptomlarına”, əlamətlərinə yönəldilməlidir. Özünü tənha

hiss edən gəncə "həyatın mənasızlığının" deyil, mənalı olmasının gerçəkliyi bütün sübutları ilə çatdırılmalıdır.

Tənhalıq kompleksinin araşdırılması zamanı gənclərin ictimai inteqrasiya amilini xüsusi olaraq nəzərdən keçirmək zəruriliyi informasiya cəmiyyətində aktuallaşıb. İctimai mühiti yaradan, formalaşdıran insanlardır. Şəxsiyyətlərin yetişməsində və formalaşmasında əsas amil ictimai mühitdir. Yetkin şəxsiyyətlərin aparıcı qüvvəsini gənclər təşkil edir. Gənclərin yetkin şəxsiyyətə çevrilməsi isə cəmiyyətin gələcəyə yönələn məqsədləridir.

Tədqiqat işinin üçüncü fəsli "**Gənclərin seçim və təkamül nəticələrinin sosial tətbiqi və aprobasiyası"** adlanır. Bu fəsil 3 paraqrafdan ibarətdir. Birinci paraqraf " **Sosial sorğu üçün dairə və çevrə şərtlərinin müəyyənləşdirilməsi"** adlanır. Sosiologiya elminin metod və metodologiyaları çərçivəsində son onilliklərdə ən yeni anlayışlardan biri sosial texnologiya termini hesab olunur. Texno-texnoloji termini günümüzdə həmçinin ən qədim dövrlərdən insanların əmək prosesində istifadə etdiyi istehsal proseslərinin təsirini, onların tətbiqi sahələrinin geniş izahını, hansısa bir əmtəənin əldə edilməsi üçün həyata keçirilən bütün texnoloji əməliyyatları geniş şəkildə əhatə edir. Sosiologiya elmində mühüm metodoloji vasitələrdən olan texniki üsulların istifadəsinin əsas xüsusiyyətləri, bu elementlərdən alqoritmlər kimi yararlanaraq, onların araşdırmalarda təkrar edilməsindən bəhrələnmək qarşıya qoyulan problemin həllinə maksimal şəkildə çatmaqdan ibarətdir.

Araşdırma nəticəsində belə bir qənaət əldə etmək olar ki, sosioloji prosesləri öyrənərkən hər zaman bu cür texnologiyalardan, alqoritmlərin növlərindən istifadə etmək o qədər də önəmli deyil, yaxud da seçimi həyata keçirən sosioloji sorğuları, analizləri müasir texnologiyalarla həyata keçirən təşkilatlardır. Deməli, təşkilatlar nəinki sosiologiya, psixologiya, fiziki, infomasiya texnologiyalarının ən azından əsasları ilə tanış olmalı, həmçinin yaradıcı təxəyyülə malik olaraq, mövzulara uyğun simvollardan istifadə edərək, işlərini həyata keçirirlər. Bütün vəziyyətlərdə sosial texnologiyalar iki əsas formada önə çıxır – layihə, yəni öncədən seçilmiş texnologiyalardan istifadə edərək tərtib edilən proqram məhsulu və fəaliyyət - qarşıya qoyulan məqsədə çatmaqla əlaqəli

işlərin yeritə yetirilməsi. Sosiologiyada həyata keçirilən sorğuların əsas məqsədi cəmiyyətdəki empirik biliklərin – yəni gündəlik, məişət həyatında insanların təcrübələrini müşahidə etmənin nəticəsində nəyin insanlara faydalı, nəyin zərərli olması haqqında mühüm baxış bucağını, lakonik cavabları cürbəcür – idarə, xətlər, çevrə və digər seqməntlərlə məqbul bir interaktiv cədvəl hazırlayaraq, ümumiləşdirməni yekunlaşdırmaq əsas aktual problemlərdən hesab olunur. Bəzi riyaziyyatçıların fikirləri ilə göstərsək, empirik səviyyədə əsas idrak formaları ilə elmi faktorların müəyyənləşdirilməsi qavrayışlar əsasında yaranan təsəvvürlər, ideyalar, fərziyələr, mülahizələr, empirik qanunların aşkar edilməsi və s.-dən ibarətdir. Elmi nəzəri səviyyədə isə spesifik idarə metodları bunlardır: abstraksiya, ümumiləşdirmə, hipotetik deduksiya, abstraktdan konkretə yükləmə, tarixi, məntiqi, riyazi metodlar, sistem-struktur, müqayisəli analogiya və s.

Üçüncü fəslin ikinci paraqrafı **“Sorğu anketlərinin tərtibi və sorğunun keçirilməsi metodları”na** həsr olunmuşdur.

Sosial sistemlərin, konkret cəmiyyətlərin inkişafının qanunauyğunluqlarının və fəaliyyətininin, sosial instituların ümumi strukturunun, qarşılıqlı əlaqə və təsirininin, həyata tətbiq edlimə mexanizminin, bu qanunauyğunluqların şəxsiyyətlərin, sosial qrupların fəaliyyətindəki təsirini empirik, nəzəri cəhətdən öyrənən sosiologiya elminin metodlarından biri anketlərin tərtibi və sorğuların keçirilməsidir. Hər iki metodun yerinə yetirilmə səbəbi sosiologiya elminin ayrı-ayrı problemlərinin həlli yollarını tapmaq üçün xüsusi araşdırmalardan ibarətdir. Daha konkret, anketlərin tərtibi, sorğunun keçirilməsi faktoloji, sənədli materialları toplamaqla, sosial aləmdə mövcud olan və tez-tez dəyişən empirik faktorları qeydiyyata almaqdır.

Sosiologiya elminin göstərdiyimiz metodlarının özəlliyi ondan ibarətdir ki, əldə edilən məlumatlar ümumi nəzəri xarakter daşısa da, onların praktikada tətbiqi öncədən nəzərə alınır.

Bu tip araşdırmaların tətbiqini “mühəndis çalışmaları” kimi də adlandırmaq olar, yəni belə problemlərin sosioloji araşdırması müvafiq dövlət təşkilatları tərəfindən sifariş edilir, sonra sosiloji qruplar tərəfindən əvvəlcə kağızda yerinə yetirilir, sonra tətbiqinə

sifarişçi tərəfindən başlanılır.

Tətbiqi nəzərdə tutulan sosioloji araşdırmalarda sifarişçi öncədən rəhbərlik etdiyi təşkilatda, yaxud da, bələdiyyə ərazisində problemin səbəblərini öyrənməsi üçün və öz əməkdaşları, yaxud da əhali arasında anketlərlə sorğu keçirmək üçün müvafiq maarifləndirici işləri yerinə yetirir.

Yekun sənəd, anket sorğularının ümumiləşdirilmiş forması olaraq, həm də sifariş edən təşkilatların müvafiq qurumlarına verilir.

Üçüncü fəslin sonuncu, üçüncü paraqrafı **“Nəticələrdən irəli gələn təkliflər”** adlanır. Bu hissədə tədqiqat işinin yuxarıdakı fəsil və yarımbaşlıqlara uyğun olaraq əldə olunan ümumi nəticələrini dissertasiyanın illustrativ materiallar bölməsində həyata keçirdiyimiz sorğuların nəticələrinə və Statistika Komitəsinin (2020-2021-ci illər üzrə) bəzi məlumatlarına əsasən təsnifatlaşdırılmışdır. Burada statistika idarəsinin məlumatları araşdırılmış və müəyyən elmi mülahizələr əldə edilmişdir. Gənclərin ixtisas və karyera seçimi həyatlarında strateji və mühüm bir addımdır. Bu proses, bir çox faktor və məhdudiyyətlərlə əhatə olunan kompleks bir məsələdir. Gənclər, bu seçimi etməklə, həm özlərini inkişaf etdirmək, hədəflərini qoymaq, öz potensiallarını və maraqlarını qeyd etmək, həm də istədikləri karyera yolunda uğurlu bir həyat qurmaq imkanı əldə edirlər.

İxtisas və karyera seçimindəki ən əsas problem, gənclərin doğru məlumat və yönəltmə olmadan, təşəbbüs və təhsil proqramlarına dair həqiqi bilgi yoxluğundan əziyyət çəkmələridir. Bu, gənclərin motivasiyasını və öz gücünü inkişaf etdirmək bacarıqlarını məhdudlaşdıra bilər. Bu problemin həlli üçün elmi və praktik yeniliklərə ehtiyac var.

Elmi aspektlərə baxdıqda, gənclərə karyera perspektivləri, ixtisaslar və əmək bazarındakı tələblər barədə müvafiq məlumatların verilməsi vacibdir. Bu, ali təhsil müəssisələri, təhsil mərkəzləri və karyera məsləhət xidmətləri tərəfindən həyata keçirilə bilər. Gənclərə mövcud olan ixtisaslar, təhsil proqramları və karyera yolunun imkanları haqqında məlumat vermək, onların seçim prosesində daha doğru və məsuliyyətli qərarlar vermələrinə kömək edəcəkdir.

Praktik aspektlər isə gənclərin ixtisas və karyera seçimində həqiqi təcrübələrə və iş imkanlarına dair ətraflı məlumatların əldə edilməsinə yönəldilmişdir. Staj proqramları, təşkilatlarla iş birliyi, mentorluq imkanları və iş dünyası ilə bağlı təcrübələr, gənclərin həyatda daha məlumatlı seçimlər etmələrinə kömək edə bilər. Bu, gənclərə əsl iş təcrübəsi və tətbiqi biliklər əldə etməyə imkan verir və seçdikləri ixtisas və karyeranın uyğunluğunu ölçmələrini təmin edir.

Gənclərin seçim probleminin özlərinin maraqlarını və potensiallarını müəyyənləşdirməklə həll edilə biləcəyi bir neçə praktik tədbir var:

- Gənclərin maraqlarını və bacarıqlarını müəyyənləşdirmək üçün mentorluq proqramları, psixoloji danışıqlar və imtahanlardan istifadə edərək onların məqsədlərini daha yaxşı anlamaq və onlara uyğun karyera yollarını tapmaq.
- İxtisas və karyera mövzusunda məsləhət xidmətləri tərəfindən təqdim edilən karyera tədqiqatları və reallıqlar barədə məlumatlarla gəncləri təmin etmək.
- Staj proqramları, müxtəlif təşkilatlarda iş imkanları və mentorluq imkanları təklif etməklə gənclərə karyera sahəsində real iş təcrübələri və rəy əldə emək imkanı yaratmaq.
- Təhsil müəssisələri və iş dünyası arasında daha güclü əlaqə və iş birliyinin formalaşmasını təmin edərək gənclərə təhsil prosesində təcrübə və tətbiqi biliklər əldə etməyə imkan verən tədbirlər və layihələr təşkil etmək.

Bu elmi və pratik tədbirlər, gənclərə daha məsuliyyətli və doğru seçimlər etməklə bağlı təşəbbüs və dəstək verəcəkdir. Bu, gənclərin öz potensiallarını reallaşdırmaq, həyatda məqsədlərinə çatmağın yollarını müəyyənləşdirməyə və uğurlu karyeranın əsasını qoymağa kömək edəcək.

Gənclərin seçim probleminin anlaşılması və onlara daha səmərəli perspektiv təklif etmək məqsədilə aşağıdakı təkliflər irəli sürülmüşdür:

*Karyera və əmək bazarı tədqiqatları:* Gənclər üçün karyera və əmək bazarının sürətlə dəyişdiyini və tələblərinin nə olduğunu daha yaxşı anlamaq üçün karyera və əmək bazarı tədqiqatlarına yatırım

edilməlidir. Bu, iş imkanlarını və istənilən ixtisasları qiymətləndirməyə imkan verərək və gənclərə daha doğru seçimlər etməyə kömək edəcəkdir.

*Məsləhət xidmətləri və mentorluq proqramları:* Məsləhət xidmətləri və mentorluq proqramları gənclərin ixtisas və karyera seçimində dəstək üçün əhəmiyyətli vasitələrdir. Gənclər, karyera məqsədləri və maraqları ilə uyğun olan mütəxəssislər və mentorlarla iş birliyi edərək daha doğru seçimlər etməyə kömək ala bilərlər.

*İxtisasların təklifi və tanıtımı:* Ali təhsil müəssisələri və digər təhsil müəssisələri, gənclərə təklif edilən ixtisaslar və təhsil proqramları haqqında daha ətraflı məlumatlar verməlidir. Bu, gənclərin həyatlarında önəmli rol oynamaqla ixtisas seçimində daha məsuliyyətli qərarlar vermələrinə kömək edəcəkdir.

*İş birliyi və təcrübə proqramları:* Təşkilatlar, gənclərə iş təcrübəsi imkanları, staj proqramları və iş birliyi proqramları təklif edərək onlara möhtəşəm bir şəkildə ixtisasları və karyera yolunu tanımaq imkanı yarada bilərlər. Bu proqramlar, gənclərin fəaliyyət göstərdikləri sahədə öz bacarıqlarını inkişaf etdirmələrinə və özünü möhkəmlətmələrinə kömək edəcəkdir.

*Mentorluq və peer-to-peer dəstək qrupları:* Mentorluq proqramları və ya peer-to-peer dəstək qrupları, gənclərə ehtiyac duyduqları dəstəyi təmin edərək seçim prosesində onları təşviq edəcəkdir. Gənclər mentorlar və ya bənzər yaş qrupları ilə olan əlaqələr vasitəsilə təcrübələri və məsləhətləri paylaşa bilərlər.

Bu təkliflər gənclərin daha məsuliyyətli və doğru seçimlər etmələrinə kömək edəcək və onlara karyera və həyat yolunda dəstək olacaqdır. Eyni zamanda ixtisas və karyera seçimində daha məsuliyyətli qərarlar vermələri üçün gəncləri daha geniş məlumatlarla təmin edəcəkdir.

Dissertasiyanın "**Nəticə**" hissəsində qeyd edilmişdir ki, istər insan həyatinda, istər cəmiyyətdə və istərsə də ümumən bəşəriyyətin taleyində hansı növ seçimin düşüncəli və müsbət olması düşündürən və mübahisələrə səbəb olan suallardan biridir. Bu problem, əsasən, insan və insan həyatı ilə əlaqədar olduğundan fəlsəfə və sosiologiya elmlərinin əsas tədqiqat sahələrindən biri olaraq araşdırılmaqdadır.

Gənclər bütün cəmiyyətlərin müstəqilliyə xüsusi meyil nümayiş etdirən bir hissəsi olsa da, onların müsbət inkişafına və seçimlərinə xüsusi diqqət zərurəti dövrün tələbidir.

Son illərdə Azərbaycanda bu sahədə böyuk müvəffəqiyyətlər əldə edilmişdir. Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın təşəbbüsləri ilə təhsil, ixtisas *və* peşə sahəsində müvafiq siyasətin *aparılması*, bir cox gənc mütəxəssislər, yeni nəslin nümayəndələri mühüm dövlət vəzifələrinə təyin edilir, vacib tapşırıqları yerinə yetirmək üçün cəlb olunurlar və artıq geyd etdiyimiz kimi, heç bir dövlət orqanı yenilənmə, islahat kursundan kənarda qalmır. Bununla da, ölkəmizdə davamlı şəkildə həyata keçirilən islahatlar silsiləsində hər zaman gənc nəslə geniş imkanlar yaratmaqla, onların gələcəyə daha güvənli, inamlı olmalarına dövlət dəstəyi idarəçilkdə nə qədər böyük əhəmiyyət kəsb etməsi bir daha öz təsdiqini tapmaqdadır.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı nəşrlərində öz əksini tapıb**


1. Z.Əliyev. Narkomaniya təhlükəsi nəzarətsiz gənclərin ciddi sosial problemi kimi. Həyat Sosiologiyası, Cild 2, Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu. Bakı, Təknur, 2018, s.127 -138.
2. Z.Əliyev.Gənclərin seçim prosesində mədəniyyət və submədəniyyətlər probleminin vəziyyəti. "Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə" Azərbaycan Respublikası Prezident yanında Dövlət İdarəçilik Akademiyası elmi-nəzəri jurnal. 2(74) 2021, Bakı, Dövlət İdarəçilik Akademiyası, s.187-195.
3. Z.Əliyev. Sosyolojide Gençlerin Karar Verme Sorunları. Aegean Summit 4th International Social Sciences Congress, (February 12-13, 2022), Mugla, Turkey, s.700-708.
4. Z. Əliyev. Tənhalıq kompleksi və ictimai informasiya amili. XXVI International Scientific Symposium, Elger Elm Tədris Mərkəzi, "Şuşa: Triumph of Victory", Eskishehir, Turkey, 2022, ss.164-169.
5. Z.Əliyev.Gənclərin seçim davranışlarında mühit fərqlilikləri. "XXIII International Scientific Symposium", Elger Elm Tədris Mərkəzi, "Integration of Cultures and Multiculturalism", dedicated to the 305th anniversary of Molla Panah Vagif. Kars, Turkey, Ertem Kafkars pub., 2022, s.164-169.
6. Z.Əliyev.Azərbaycnam hüqqui demokratik islahatlar yolunda şəxsiyyət amilinin yeri və rolu. "XXVI International Scientific Symposium", "Give way to the Turkic flag", dedicated to the 130 anniversary of Ahmad Javad, Stockholm, Sweden, Ertem Kafkars pub., 2022, s.214-219.
7. Z.Əliyev.Эволюция института социального выбора очерк. Журнал Социология (Журнал Российской социологической ассоции), №4, 2022 s. 134-140.
8. Z.Əliyev.Seçim anlayışı, onun fərdi və ictimai cəhətləri. "Metafizika" beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalı, vol 5, issue 2, serial 18, Bakı, Azərbaycan, 2022, s.51-62.

9. Z.Əliyev.Azərbaycan gəncliyinin seçim məsələsinə sosioloji baxış. VIII Beynəlxalq Elmi Araşdırmalar Konfransın materialları. Bakı, "Azərbaycan" nəşriyyatı, 2022, s.37-41.
10. Z.Əliyev. Azərbaycan gəncliyinin seçim məsələsinə sosioloji baxış."Scientific Work" International Scientific Journal, the VIII International Scientific Research Conference, 2022, s.37-41.
11. Z.Əliyev.Sosisoloji problemlərdə gənclərin tənhalığınm təzahür səbəbləri, fəsadları və çıxış yolları. "Silivizasiya" Bakı Avrasiya Universiteti elmi-nəzəri jurnal, Cild 12 JN°4 2023 (55), Bakı, Bakı Avrasiya Universitetinin nəşri, s.14-22
12. Z.Əliyev.Sosiologiyada anketlərin tərtibi və sorğunu gerçəkləşdirmə metodları barədə. "Metafızika" beynəlxalq fəlsəfı və fənlərarası araşdırmalar jurnalı, vol:6, issue 4, serial:24, 2023, Bakı, Azərbaycan, s.51-62.

Dissertasiyanın müdafiəsi ___19___ ___09___ 2024-cü il tarixində saat ___15___ –da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 3.09 – Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, Konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 ___07___ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.07.2024

Kağızın formatı: A5

Həcm: 40080

Tiraj: 100